**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**

«Təsdiq edirəm»
Tədris məsələləri
üzrə prorektor v.i.e:
dos. Zaur Məmmədov
"12" 09 2025-ci il

# FƏNN SİLLABUSU

**İxtisas:** 050310-Muzey,arxiv işi, abidələrin qorunması
**Fakültə:** Tarix coğrafiya və incəsənət
**Kafedra:** Tarix və onun tədrisi metodikası
**I Fənn haqqında məlumat:**
**Fənnin adı:** S/f (Arxeologiya) ARTN-nin 12.04.2017-ci il tarixli 200 saylı əmri ilə təsdiq edilmişdir
**Kodu:** İPFS- B01
**Tədris ili:** I (2025-2026) I semestr
**Tədris yükü:** Cəmi 210 saat. Auditoriya saatı-75 saat, (45 saat mühazirə, 30 saat seminar)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 7 kredit
**II Müəllim haqqında məlumat:**
**Adı, soyadı , elmi dərəcəsi :** dos. Bayramov Müşfiq Cabir oğlu
**Kafedranın ünvanı:** Lənkəran ş., Ə.Məmmədov küçəsi, 22, 2 saylı tədris korpusu
**E-mail ünvanı:**
**III Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:**

1. Azərbaycan arxeologiyası. Altı cilddə. II cild. Bakı, 2020.
2. Cəfərov Ə. Q.Qarabağın paleolit düşərgələri. Bakı, 2017.
3. Qüdrət İsmayılov, "Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri", "Elm" nəşriyyatı , Bakı , 1981
4. Mahmudov F.R. Əliköməktəpəsində arxeoloji qazıntıların ilkin yekunları // Azərbaycanda daş dövrü və eneolit, Bakı, 1984.
5. Д.А.Авдусин, Основы археологии. Москва, Высшая школа, 1989
6. Ə. Cəfərov Quruçay dərəsində. Azərbaycan dövlət nəşriyyati, Bakı – 1990
7. R.B.Göyüşov, A.İ.Martınov. SSRİ arxeologiyası. Bakı, 1991
8. Мартынов А.И. Археология. Москва, Высшая школа, 2000
9. Cəfərov Ə.Q. Azərbaycanın ilk sakinləri. Bakı, 2004.
10. V.Baxşəliyev. Azərbaycan arxeologiyası. I cild. Bakı, 2006
11. İqrar Əliyev. Azərbaycan tarixi. Yeddi cilddə. I cild (Ən qədimdən - b.e. III əsri). Bakı. "Elm". 2007.
12. Azərbaycan arxeologiyası (Daş dövrü). 6 cilddə, I cild. Bakı, 2008
13. Махмудов Ф. Культура юго-восточного Азербайджана в эпоху бронзы и раннего железа. Баку, 2008.
14. Dostiyev T.M. Azərbaycanın orta əsr şəhərləri. Dərs vəsaiti. Bakı, 2016
15. Azərbaycan arxeologiyası (Orta əsrlər). 6 cilddə, IV cild. Bakı, 2008
16. Ş.İradə, Q.Priquliyeva Qafqaz Arxeologiyası. Dərslik. Bakı, 2010.
17. Мамедали Гусейнов Древний Палеолит Азербайджана. Баку 2010
18. Xəlilov M.C. Albaniyanın qəbir abidələri (IV-X əsrlər). Bakı, 2009.

**IV Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən Azərbaycan tarixinin tədrisi vacibdir.
**V Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta Numizmatika fəninin də tədris olunmasına zərurət vardır.
**VI Fənnin təsviri və məqsədi:** Bəşər tarixinin keçmişinin tədqiqində ən mühüm mənbə arxeoloji materiallar hesab olunur. Arxeoloji mənbələr əsasında ilk ibtidai insanların meydana gəlməsi, inkişaf etməsi və formalaşması tarixini dəqiq öyrənmək olur. Belə ki yazılı mənbələr bəşər cəmiyyətinin olduqca az bir dövrünü əhatə edir. Bəşər cəmiyyətinin tədqiqində əsas mənbə qədim yaşayış yerləri, qəbir abidələri, onlarda olan yatıb qalan maddi mədəniyyət nümunələridir. Bu abidələrin aşkar edilməsi tədqiq edilməsi işi ilə məhz arxeologiya elmin məşğul olur.Kursun tədrisində əsas məqsəd tələbələrdə bəşər cəmiyyətinin uzaq tarixi keçmişini maddi-mənbələr əsasında öyrənən arxeologiya elmi haqqında ümumi biliklər verməkdir. Kursda tələbələrə arxeologiyanın nəzəri əsasları, humanitar elmlər arasında yeri, bəşəriyyətin başlıca inkişaf mərhələləri insanların əmələgələ əsasları, arxeoloji tədqiqat üsulları, tədqiqiqat metodları, arxeoloji mədəniyyətlər, maddi mənbələr və onların xarakter və təsnifatı, əsas arxeoloj terminlər və s. haqqında ümumi biliklər verməkdir.

CamScanner ilə skan edilib

**VII Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə. İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzərə alınır.

Qiymət meyarları aşağıdakılardır:

- 10 bal- tələbə keçirilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.
- 9 bal-tələbə keçirilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.
- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal- tələbə keçirilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir
- 6 bal- tələbənin cavabı əsasən düzgündür.
- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.
- 4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.
- 0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunur.

Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| 1. | 91-100 | əla | A |
| 2. | 81-90 | çox yaxşı | B |
| 3. | 71-80 | yaxşı | C |
| 4. | 61-70 | kafi | D |
| 5. | 51-60 | qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | qeyri-kafi | F |

**IX Davranış qaydalarının pozulması:** Tələbə Universitetin daxili nizam – intizam qaydalarını pozduqda onun haqqında əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**X Təqvim planı:** 45 saat mühazirə, 30 saat seminar

| N | Keçirilən mühazirə və seminar mövzuların məzmunu | Müh. | Sem. |
|---|---|---|---|
| 1. | **Mövzu:** Arxeologiya elmi haqqında ümumi məlumat<br>Qısa icmal: Arxeologiya fənnin predmeti, obyekti məqsəd və vəzifələri. Arxeoloji mənbələr, abidələr və onların təsnifatı. Arxeologiya elmində əsas anlayışlar: mədəni təbəqə, stratiqrafiya, arxeoloji kompleks, arxeoloji mədəniyyət. Arxeoloji dövrləşmə. Nisbi və mütləq xronologiya. Arxeologiya elminin metodları.<br>Mənbə:[2;5;6;7;9;10;11] | 2 | 2 |
| 2. | **Mövzu:** Arxeologiya elminin təşəkkülü və inkişaf mərhələləri<br>Arxeologiya anlayışının və terminologiyasının formalaşması. Dünyada ilk arxeoloji tədqiqatlar. Rusiyada və Qərbi Avropada arxeolji tədqiqtların inkişafı. Qafqazın arxeoloji tədqiqi tarixindən. Arxeologiayanın bir elm kimi tədrisi. Arxeologiyanın digər elmlərlə qarşılıqlı əlaqəsi.<br>Mənbə:[2;5;6;7;9;10;11] | 2 | |
| 3. | **Mövzu:** Daş dövrü haqqında ümumi məlumat.<br>Qısa icmal: İnsanın əmələ gəlməsinin əsasları. Antropogenezin əsas mərkəzləri. Hommonidlərin ən qədim tapıntıları. Müasrr insan tipinin formalaşması. | 2 | 2 |
| 4. | **Mövzu:** Alt Paleolit. Olduvey mədəniyyəti. Quruçay mədəniyyəti. Qafqazın Alt Paleolit dövrü abidələri. Onun xronoloji çərçivəsi. Azıx mağarasının alt mədəni qatları. Dmanisi Paleolit düşərgəsi. Antropoloji qalıqlar. Aşel mədəniyyəti. | 2 | 2 |
| 5. | **Mövzu:** Mustye mədəniyyəti.<br>Mustye dövrünün ümumi səciyyəsi. Mustye dövründə daşişləmə texnikası və əsas əmək alətləri. Antropoloji tapıntılar. Poleantroplar. Yaxın və Orta Şərqin, Qafqazın, Orta Asiyanın Mustye dövrü abidələri. Mustye dövründə ilkin dini görüşlər və dəfn adətləri. | 2 | |

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| 6. | **Mövzu:** Üst Paleolit, Poleolit incəsənəti .<br>Qısa icmal: Üst Paleolit dövrüün ümumi səciyyəsi. Daşişləmə texnikasında baş vermiş yeniliklər. İnsanın müasir fiziki tipinin təşəkkülü, nəsli-qəbilə icması yaranması. Qafqazın üst poleolit dövrü abidələri. Paleolit incəsənəti. | 2 | 2 |
| 7. | **Mövzu:** Mezolit dövrü, əsas xüsusiyyətləri və xronoloji çərçivəsi.<br>Qısa icmal: Holosendə təbii–coğrafi şərait. Mezolit dövrünün xronoloji çərçivəsi. Daşişləmə texnikasında yeniliklər, mikrolit tipli alətlər yaranması. Ox və kamanın kəşfi. Ovçuluq və balıqçılıqda ixtisaslaşma. Mənimsəmə təsərrufat formasından istehsal təsərrüfat formasına keçidin başlanması. Qafqazn mezolit dövrü abidələri. Mezolit dövrü təsərrüfatı. Mzolit dövrü əhalisinin dini dünyagörüşü və dəfn adətləri.<br>Mənbə:[5;6;7;9;10;11;15] | 2 | 2 |
| 8. | **Mövzu:** Azərbaycan qayaüstü təsvirləri<br>Qısa icmal: Qayaüstü təsvirlərin arxeoloji və mədəni əhəmiyyəti . Qobustan Qayaüstü təsvilrinin tədqiqi tarixindən. Qobustan petroqliflərinin mövzü dairəsi və təsnifatı. Kəlbəcər qayaüstü təsvirləri. Kəlbəcər petroqliflərində heyvan təsvirləri və ov səhnələri. Gəmiqaya təsvirləri. Azərbaycanın digər qayaüstü təsvir məkanları (Daşkəsən. Zəngəzur) | 2 | |
| 9. | **Mövzu:** Neolit dövrü, Qafqazın neolit dövrü abidələri.<br>Qısa icmal: Neolit dövrünün xronoloji çərçivəsi. Neolit inqilabı. İntensiv istehsal təsərrüfatı formasına keçid. Gil qab istehsalının başalanması. Parçatoxuma usulunun yaranması. Daşişləmə texnikasında baş vermiş dəyişikliklər. Erkən əkinçilərin əmək alətləri. Krımın Orta Asiyanın Sibirin, Uzaq Şərqin, Qafqazın Neolit dövrü abidələri. Dəfn adətləri.<br>. Mənbə: [6;7;9;10;11] | 2 | 2 |
| 10. | **Mövzu.** Kiçik Asiyanın, Orta Asiyanın, Şimali Mesopotamiyanın Neolit dövrü abidələri<br>Qısa icmal: Kiçik Asiyanın Neolit dövrü abidələri: Çatal Huyuk, Hacılar və Çayönü abidələri. Şimali Mesopotamiyanın Xassun, Xələf mədəniyyətləri. Qərbi İranın erkən əkinçilik mədəniyyətləri: Ali-Qoş, Çoqa-Sefid, Çoqa-Banut, Qandji-Dərə abidələri. Orta Asiyanın erkən əkinçilik mədəniyyətləri: Ceytun, Ketlaminar mədəniyyətləri. Neolit dövrü incəsənəti.<br>Mənbə: [6;7;9;10;11] | 2 | 2 |
| 11. | **Mövzu.** Eneolit dövrü. Eneolit dövrü arxeoloji mədəniyyətləri<br>Qısa icmal: Eneolit dövrünün ümumi xarakteristikası və onun xronoloji çərçivəsi. Təkərin kəşfi. İntensif istehsal təsərrüfatının formalaşması. Maldarlıq və əkinçilik təsərrüfatı. Qafqazın erkən əkinçilik mədəniyyətləri. Leylatəpə arxeoloji mədəniyyəti. Mil Qarabağ və Muğan düzünün, Naxçıvan bölgəsi və Urmiyaətrafı bölgənin yaşayış məskənləri. Əmək alətləri və saxsı məmulatı. Gürcüstanın Eneolit dövrü yaşayış məskənləri Şulaverisqora, I Aruxlo, Amirisqora və s. Cenubi-Şərqi Avropanın Eneolit dövrü abidələri: Tripolye mədəniyyəti.<br>Mənbə: [2;6;7;9;10] | 4 | 2 |
| 12. | **Mövzu:** Erkən tunc dövrü – Qafqazın ilk tünc dövrü arxeoloji mədəniyyətləri.<br>Qısa icmal: Tuncun istehsal üsulunun mənimsənilməsi. Tünc dövrünün xronoloji çərçivəsi. Suni suvarma əkinçiliyinin və sənətkarlığın inkişafı. Xış əkinçiliyi. Birinci böyük ictimai əmək bölgüsü. Köçəri maldarlığın meydana gəlməsi. Əmlak və sosial bərabərsizliyinin yaranması. Qafqazın tünc dövründə. Maykop arxeoloji və Kür-Araz arxeoloji mədəniyyətləri. Babadərviş, Mingeçevir, Qarakopəktəpə, Kültəpə, Göytəpə, Yanıqtəpə yaşayış yerləri. İlk tunc dövrünə aid qəbir abidələri və dəfn adətləri.<br>Mənbə: [6;7;9;10;14] | 2 | 2 |
| 13. | **Mövzu: Hind vadisi sivilizasiyası (e.ə.3300-e.ə. 1300)**<br>Qısa icmal: Hind çayı vadisi sivilizasiyasının ümumi təqdimatı. Mohonjo –Daro şəhərinin arxeoloji tədqiqi. Harrapanın xroonologiyası və inkişaf mərhələləri. Harrapa şəhərində sistemli arxeoloji qazıntılar. Mühüm şəhərlər: Dholavira, Lothal. Hind vadisi sivilizasiyasında yaşayış və şəhər planlaması, İqtisadi və sosila həyat. | 2 | |

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| 14. | **Mövzu.** Qafqazın Orta və Son Tunc dövrü arxeoloji mədəniyyətləri<br>Qısa icmal: Şimali Qafqaz arxeoloji mədəniyyətləri Qayakend-Xoroçoyev mədəniyyəti. Prikoban arxeoloji mədəniyyəti. mədəniyyəti. Şərqi Zaqafqaziya mədəniyyəti. Koban mədəniyyəti. Samtavr arxeoloji tünc dövrü qəbir abidələri və dəfn adətləri. Trialeti və Kolxida mədəniyyətləri. Orta Tünc dövründə. Talış – Muğan arxeoloji mədəniyyəti. Orta Tünc dövrü təsərrüfatı. Qafqaz Son mədəniyyəti. Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti. Naxçıvan arxeoloji<br>Mənbə: [6;7;9;10;14] | 4 | 2 |
| 15. | **Mövzu.** Dəmir dövrü arxeologiyası.<br>Qısa icmal: Erkən Dəmir dövrünün başlanğıcı və onun inkişaf mərhələləri. Dəmirdən əsas əmək alətləri və silah nümunələrinin hazırlanmasının genişlənməsi. Dəmirin inkişafı ilə sosial-iqtisadi və mədəni həyatda baş verən dəyişiliklər. Qafqazın Erkən Dəmir dövrü abidələri: Manna dövləti. Şəhərlər. Həsənli. Təsərrüfat və sənətkarlıq. Əmək alətləri və silah nümunələri. Zəviyyə tapıntıları. Dini etiqadlar, qəbir abidələri, dəfn adətləri. Şimali Azərbaycanın Erkən dəmir dövrü yaşayış məskənləri. Siklopik tikililər. Təsərrüfat və sənətkarlıq. Qəbir abidələri.<br>Mənbə: [4;6;7;10;12] | 2 | 2 |
| 16. | **Mövzu.** Skif-Sibir dünyuası arxeologiyası,<br>Qısa icmal: Skif-Sibir mədəniyyətinin təşəkkülü və onun yayılma arealı. Kimmer və skiflərin Ön Asiya yürüşləri. Kimmerlərin Qafqaza gəlişi. Skif mədəniyyətinin mənşəyi. Kamensk Şəhərgahı. Skif kurqanları: Çertomlık, kül-Oba. Skif tayfaları və onların qonşuları. Skiflərin əsas maddi mədəniyyət namunələri. Skif heyavnl üslub. Sarmatlar, onların yayılma ərazisi. Praxarov arxeoloji mədəniyyəti. Sarmatların qəbir abbidələri. Saaklar.Yaşayış məskənləri. Qəbir abidələri və dəfn adətləri. Taqar mədəniyyəti. Dağlıq Altayın Erkən Dəmir dövrü kürqanları. Pazırık kurqanları. Prespol qazıntıları<br>Mənbə: [4;6;7;] | 2 | 2 |
| 17. | **Mövzu.** Antik dövr arxeologiyası.<br>Qısa icmal: Qafqaz Antik dövrdə. İberiya dövləti. Yaşayış yerləri, Armazis-Tsixe şəhəri. İctimai binalar. Samtavr və Axalqori qəbristanlıqları. Sənətkarlıq. Kolxida mədəniyyəti. Van və Eşer şəhərləri. Albaniya antik dövrdə. Arxeoloji cəhətdən öyrənilmə tarixi. Albaniyanın yaşayış yerləri. İctimai-dini binalar. Yaşayış evləri. İstehsalat və təsərrüfat tikililəri. Təsərrüfat həyatı və sənət istehsalı. Albaniyanın qəbir abidələri. Atropatena antik dövrdə. Yaşayış yerləri. İctimai-dini binaları. Yaşayış evləri. İstehsalat və təsərrüfat tikililəri. Təsərrüfat həyatı. Sənətkarlıq. Dini görüşləri və dəfn adətləri.<br>Mənbə: [6;10;16] | 2 | 2 |
| 18. | **Mövzu.** Volqa Bulqarları, Hunlar və Xəzərlər<br>Qısa icmal: Bolqarların yayıldığı ərazilər. Bolşetarxan Tankeyevski qəbiristanlıqarı, dəfn adətləri, sənətkarlıq. Hunlar Mərkəzi Asiyanın qədim tayfalarından biri kimi. İvolgin şəhər yeri. Hunlara aid qəbir abidələri, silahlar və məişət əşyaları. Xəzər xaqanlığı, sərhədləri etnik tərkibi. Sənətkarlıq, hərbi hazırlıq, təsərrüfat, dini təsəvvürlər.<br>Mənbə: [4;6;7] | 2 | 2 |
| 20. | **Mövzu.** İslam Arxeologiyası<br>Qısa icmal: Azərbaycan İslam dövrü abidələrinin arxeoloji tədqiqi. Dini xatirə və qəbir abidələri. İslamın hakim ideologiyaya çevrilməsi və onun maddi mədəniyyətə təsiri. Əhalinin təsərrüfat və məişəti.<br>Mənbə: [13] | 2 | |
| 21 | **Mövzu.** Azərbaycanın orta əsr yaşayış yerləri.<br>Orta əsr şəhər tipli yaşayış yerləri, Bakı, Gəncə, Şamaxı, Dərbənd, Beyləqan, Şabran, Bərdə, Şəmkir və s. şəhər yerləri. orta əsr qəsrli yaşayış yerləri, orta əsr kənd yaşayış yerlərinin topoqrafik quruluşu, yaşayış və təsərrüfat tikililəri kənd yaşayış yerlərinin tipləri, orta əsr kənd yaşayış yerlərinin tədqiqinin müasir vəziyyəti | 3 | 2 |

**XI Fənn üzrə tələblər:**

Təqdim olunan fənnin mənimsənilməsi nəticəsində tələbə arxeologiyanın əsas problemləri haqqında təsəvvürə malik olmalı, fənnin obyekti, predmeti, məqsəd və vəzifələrini, onun digər humanitar fənlər arasında yerini bilməli, qədim sivilizasiyaların inkişafının ümumi qanunauyğunluqlarını və meyllərini anlamalı, nəzərdən keçirilən problemlərin şərhi barəsində tarixşünaslıqdakı fikirlər ilə tanış olmalıdır. Eyni zamanda arxeoloji abidələri fərqləndirməyi, Azərbaycan və dünya arxeoloji abidə və mədəniyyətlərini fərqləndirməyi və oxşar cəhətlərini müəyyən etməyi bacarmalıdır.

CamScanner ilə skan edilib

**XII Fənn üzrə təlim nəticələri:**

- Arxeologiya sahəsində əsas anlayışlara və və nəzəri yanaşmalara bələddir.
- Arxeoloji tədqiqatların aparılması metodları barəsində ilkin təsəvvürlərə malikdir.
- Ayrı-ayrı arxeoloji abidələrin timsalında istifadə olunan tədqiqat üsulları və texnikalarını şərh edir.
- Ölkəmizdəki arxeoloji abidələr haqqında məlumatlıdır.
- Azərbaycanın əsas arxeoloji abidələrinin tarixi və əhəmiyyətini izah edir.

**XIII Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV Kollokvium sualları:**

**I Kollokvium sualları:**

1. Arxeologiya fənninin predmeti məqsədi və vəzifələri
2. Arxeologiya elminin inkiafı tarixi
3. Mənbələr, abidələr və arxeoloji mədəniyyətlər
4. İnsanın meydana gəlməsinin əsasları. Antropogenz
5. Daş dövrünün ümui səciyyəsi
6. Alt paleolit dövrü və onun əsas xüsusiyyətləri
7. Qafqazın alt poleolit dövrü abidələri
8. Mustye mədəniyyəti
9. Yaxın və orta şərqin Mustye dövrü abidələri
10. Qafqazın Mustye dövrü abidələri
11. Üst Paleolit dövrü və onun əsas xüsusiyyətləri
12. Paleolit incəsənəti
13. Arxeologiya fənninin digər fənlərlə qarşılıqlı əlaqəsi
14. Mezolit dövrü və onun əsas xüsusiyyətləri
15. Qafqazın Mezolit dövrü abidələri

**II Kollokvium sualları:**

1. Azərbaycan qayaüstü təsvirləri
2. Qobustan qayaüstü təsvirinin tədqiqi tarixindən.
3. Neolit dövrü və onun əsas xüsusiyyətlri
4. Qafqazın Neolit dövrü abidələri
5. Kiçik Asiyanın, Orta Asiyanın, Şimali Mesopotamiyanın Neolit dövrü abidələri
6. Eneolit dövrü və onun əsas xüsusiyyəttləri
7. Qafqazın Eneolit dövrü abidələri
8. Mohenco Daro və Harrapa mədəniyyəti
9. Tünc dövrünün xronoloji çərçivəsi və ümumi səciyyəsi
10. Kür-Araz və Maykop arxeoloji mədəniyyətləri
11. Qafqazın orta tünc dövrü arxeoloji mədəniyyətləri
12. Boyalı qablar mədəniyyəti
13. Dəmir Dövrü və onun əsas xüsusiyyətləri
14. Ziviyyə və Həsənli qazıntıları və onların elmi əhəmiyyəti
15. Urartu və onun arxeoloji tədqiqi

**XV İmtahan sualları:**

1. Arxeologiya fənninin predmeti məqsəd və vəzifələri.
2. Arxeoloji kompleks, mədəni təbəqə və stratiqrafiya
3. Mənbələr, abidələr və arxeoloji mədəniyyətlər.
4. Antropogenez-insanın meydana gəlməsinin əsasları
5. Arxeologiya elminin tarixi və inkişaf mərhələləri.
6. Paleolit dövrü və onun əsas xüsusiyyətləri.
7. Qafqazın alt Poleolit dövrü abidələri
8. Azıx mağarası və onun arxeoloji tədqiqi.
9. Mustye dövrü və onun əsas xüsusiyyətləri
10. Yaxın və Orta Şərqin Mustye dövrü abidələri
11. Üst Paleolit dövrü və onun əsa xüsusiyyətləri
12. Paleolit incəsənəti
13. Mezolit dövrü və onun əsas xüsusiyyətləri.
14. Qafqazın Mezolit dövrü abidələri.
15. Azərbaycanın qayaüstü təsvirləri
16. Neolit dövrü və onun əsas xüsusiyyətləri.

CamScanner ilə skan edilib

17. Kiçik Asiyanın erkən əkinçilik məskənləri
18. Qafqazın Neolit dövrü abidələri
19. Yaxın şərqin Neolit dövrü abidələri
20. Eneolit dövrü və onun əsas xüsusiyyətləri
21. Qafqazın Eneolit dövrü abidələri
22. Mohenco-Daro və Harrapa mədəniyyəti
23. Tünc dövrü və onun əsas xüsusiyyətləri
24. Kür-Araz, Maykop arxeoloji mədəniyyətləri
25. Qafqazın orta tünc dövrü arxeoloji mədəniyyətləri
26. Boyalı qablar mədəniyyəti
27. Son Tünc dövrü arxeoloji mədəniyyətləri
28. Dəmir dövrü və onun əsas xüsusiyyətləri
29. Qafqazın Dəmir dövrü abidələri
30. Ziviyyə və Həsənli qazıntıları və onların elmi əhəmiyyəti
31. Urartu və onun arxeoloji tədqiqi
32. Kimmerlər, skiflər və saklar
33. Azərbaycanın antik dövr abidələri
34. Albaniyanın şəhərləri və onların arxeoloji tədqiqi.
35. Atropatenanın şəhərləri və onların arxeoloji tədqiqi
36. İberiya və Kolxidanın antik dövr arxeoloji abidələri .
37. Albaniya və Atropatenanın qəbir abidələri
38. Volqa Bulqarları, Hunlar, Xəzərlər
39. Orta əsr Azərbaycan dini-xatirə və qəbir abidələri
40. Azərbaycan orta əsr yaşayış yerləri

S/f (Arxeologiya) fənninin sillabusu 050310 "Muzey,arxiv işi, abidələrin qorunması" ixtisası üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. Sillabus "Tarix və onun tədrisi metodikası" kafedrasında müzakirə edilərək, təsdiq edilmişdir (12 sentyabr 2025-ci il, protokol № 1).

**Kafedra müdiri:** ________ **dos.K.F.Mahmudov**

**Fənn müəllimi:** ________ **dos.M.C.Bayramov**

CamScanner ilə skan edilib